**Leyla Firdovsi qızı ƏFƏNDİYEVA**
*Qərbi Kaspi Universitetinin "Dizayn" kafedrasının müəllimi*
*Azərbaycan Rəssamlar İttifaqının,,*
*IWS Azərbaycan Sulu boya ittifaqnın,,*
*VIPAA.Beynəlmilləl Rəssamlar cəmiyyətnin,,*
*Xalça İctimai Birliyinin üzvü.*
*E-mail: Leylavazehi9@gmail.com*

# ÜMUMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN İNCƏSƏNƏTİNƏ TÖHVƏSİ

**Xülasə**

Məqalədə müəllif, Ümumilli liderin Azərbaycan incəsənəti sahəsinə verdiyi töhfələrdən söhbət açılır.Mövzu Heydər Əliyevin Azərbaycan incəsənətinin hər bir sahəsinə toxunulan qızıl toxunuşları diqqət mərkəzinə gətirməkdir.Yenicə müstəqillik qazanmış ölkənin hər bir sahəsinə dəmir irdəli bir insanın sahiblənməsi, qol-budaq gəlməsi, dövrü üçün çox zəhmət tələb edən və məşəqqətli işlərdən bəhs edir.İncəsənətin ədəbiyyat,kino,teatr,musiqi,rəssamlıq və sairə kimi geniş sahələri tutan sənət sahələrinə danılmaz qayğı göstərilmişdir.Həmçinin Azərbaycan incəsənətinə yenidən öz inkişafını,intibahını yaşamasına kömək edən dahi lider Heydər Əliyevin böyük dəstəyindən sonra hal-hazırda günümüzdə var olan Azərbaycan incəsənətindən bəhs edilir.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan incəsənəti ,dəmir iradə,ulu öndər,müstəqillik.

**DOI:** 10.54414/YYBE1330

## Giriş

Qədim torpaq, qədim ölkə olan Azərbaycan indiki dövrümüzə qədər çox böyük, görkəmli sərkərdələr və dövlət başçıları görmüşdür. Günümüzə ən yaxın olan dövrdə isə bu şəxsiyyətlərin ən parlaq və önəmli nümunəsi olan Heydər Əliyevi göstərmək olar. Bu şəxsiyyət nəinki, zamanının hətta indiki dövrümüzündə ən görkəmli və tarixi şəxsiyyətidir. Məhz buna görə Heydər Əliyev zamansız insandır. Ümumilli liderimizin yenicə azadlığına qovuşmuş Azərbaycanın gələcəyi üçün etdiyi hər bir şey hətta bu gün belə öz aktuallığını qoruyub saxlamışdır.

Bəhs etdiyimiz kimi dahi liderin öz yaşadığı tarixdən çox-çox öncə olan qüvvətli zehni və dünya görüşü danılmazdır. Bu səbəblərdən verdiyi qərarlar incəsənətin ayrı-ayrılıqda hər bir sahəsinə böyük təsir göstərib.Bütün bu səbəblərdən bizim yaddaşımıza sevgi və hörmətlə sabitlənib. Təhsilin və mütaliənin önəmini bilən lider hər zaman gənc nəslin savadlı və mütaliə edən olmasını istəyib. Bunun üçün də yazarlarımız,şairlərimiz bu dövrdən nəsiblərini alıb öz yaradıcılıqlarının intibah dövrlərinə başlamışdırlar. O, Azərbaycan ədəbiyyatının dünyada tanınmasını özünə layiq yerləri yəni zirvələri tutmasını istəyirdi. Zəngin mədəniyyətimizi dünyada tanıtmaq üçün, özünə layiq olan yeri alıb qəbullanmasına görə əlindən gələni edirdi. Qəzetlərin hər bir tirajının keyfiyyətli yazılması və çap olunması bunların başında gəlirdi. Əl çatanlığı ilə qəzetlər insanların mütaliəsi üçün önəmli amillərdən biridir.Dahi insan Heydər Əliyev bunun üçün qəzet redaktələrini xüsusi diqqət və qayğı ilə əhatələdi.Bu nəşriyyata nümunə olaraq "Ədəbiyyat" qəzetini göstərmək olar.

Ulu öndərin hakimiyyətə gəlişi ilə Azərbaycan filminin də yenidən bərpası və inkişafı başladı.

Heydər Əliyevin 2000-ci il 18 dekabr sərəncamı ilə 2 avqust kino işçilərinin peşə bayramı elan edildi. Bu kino işçilərinə veriləbiləcək ən böyük qayğı,diqqət və sevginin önəmini göstrərir. Hadisə incəsənət xadimlərinə xüsusi həvəs verib yaradıcılıqlarına böyük bir şövqlə yanaşmalarına səbəb oldu.

Sovet dövrü zamanlarında incəsənətin hər bir sahəsində olduğu kimi çox sərt senzuralar var idi. İnsanlara böyük basqı altında öz tarixlərini, əcdadlarını, tarixi kimliklərini unutdurmaq

istənilirdi. Lakin bu xalqın dirənişi və Heydər Əliyevin dəmir iradəsi ilə mümkün olmadı. Sadəcə Sovet dövrünün diktə etdiyi tarixi bilib, adətləri yaşayıb və bunada uyğunlaşmamız gözlənilirdi. Əlaxsusda tarixi filmlər daha çox senzuralara tuş gəlirdi. Dövrün ən gözəl tarixi filmləri məhz bu dövrlərdə çəkildi. Günümüzdə də bu filmlər Azərbaycan kinomotoqrafiyasının inciləri sayılır.Bu filmlərə misal olara: “Babək”, “Nəsimi”, “Bir cənub şəhərində”, “Uzaq sahillərdə” və sairə .Filmlər çəkilən zaman bütün komanda heyyətinin çox böyük maneələrlə qarşılaşdığını anlamaq rahat anlaşılandır. Çünki xalqın öz tarixini, dədə baba əcdadlarını xatırlamağını, bilməsini, oyanmasını istmirdilər. Bütün bu baş verən çətinliklərə baxmayaraq respublika büdcəsindən pul ayrılır və ya xarici ölkələrdən xüsusi döyüş səhnələri üçün avadanlıqlar gətirilirdi. Bütün bunlar dahi liderin köməkliyi ilə Azərbaycan kinomotoqrafiyasına bəxş etdiyi dəyərli sərvətlər idi.

Heydər Əliyevin rəssamlarımıza da eyni qayğısından söhbet apara bilərik. Ulu öndər zəkası,düşüncəsi ilə hər bir kəsə örnək idi. O rəssam ilə rəssamlıqdan,rejisor ilə kinodan, heykəltaraş ilə heykəltaraşlıqdan çox böyük məharətlə söhbət edirdi. Bu Heydər Əliyevin qeyri adi geniş zəkasının göstəricisidir. Məhz bütün bu xüsusiyyətlər, fərqliliklər onu öndər edir və adını şanlı tarixe qızıl hərflərlə yazdırıb. Xalqın incəsənət xadimlərinin bu dahi şəxsiyyəti sevmələri əsərlərində öz əksini tapır. Dahi fırça ustaları professional yanaşmaları ilə ulu öndərin portretlərini çəkiblər. Peşəkar xalçaçı-rəssamlar isə öz çəkdikləri xalça kompozisiyalarında Heydər Əliyevin məğrurluğunu göstərən əsərlər yaradıblar. Misal olara: Tahir Məcidov, Fazil Abbasquluzadə və saire.

Ustad xalçaçı-rəssam Tahir Məcidov Ulu öndərin portretini çox gözəl xalça kompozisiyasında əks edib. Portretdə Heydər Əliyevin şux və gülər siması ilə həm vətənlilərini salamlaması ilk gözə çarpan amildir. Heç də boşuna deyilki inəsənət xadimi əsərin adını “Qayıdış” adlandırıb. Məğrur, qürurlu yerişli dahi öndərin dəqiq və məqsədə yönəli şəkildə aparıdığı gözəl siyasətin barını biz ölkə olaraq 2-ci Qarabağ döyüşlərində görə bildik. Ali Baş Komandanımız İlham Əliyevin başçılığı altında qəhrəman xalq öz qədim, həsrətində olduğu torpaqları geri qaytardı. Bu bir qürurdur. Bu bir sevincdir. Rəssamda bütün kompozisiya ilə biz tamaşaçılarına bu hissləri yaşadır. Xalçanın haşiyələri isə başdan-başa anlamlı detallarla işlənilib. Azərbaycanın ən böyük sərkərdələrinin təsviri isə işə xüsusi hissvə həyəcan qatır.Şəkil. 1



**Şəkil 1**



**Şəkil 2**

Opalizm məktəbinin banisi olan Sakit Məmmədovun dövrümüz tarixində yaratdığı məşhur “Heydər Əliyev” portreti öz möhtəşəmliyi ilə göz oxşayıb qürur verməkdədir. Bu portret barəsində sənətkarlıq üzrə fəlsəfə doktoru Sevil Kərimovanın

vurğuladığı kimi həqiqətəndə, əsər ümumilli lider Heydər Əliyevin obrazı daxili əhval - ruhiyyəsini müəyyən edir.Sakit Məəmədov böyük məharətlə Ulu Öndərin xüsusi ruh yüksəkliyini, aram və rahat vəziyyətdə oturuşunu təsvir edib. Ümumilli liderin müdrik baxışı əsərin mühitinə və tamaşaçısına nikbinlik verir. Şəkil 2.

Azərbaycan icənətinə adını qızıl hərflərlə yazdıran digər dahi rəssam isə Tahir Salahovdur. Rəssam rəngkarlıqda ”sərt üslub” adlanan istiqamətin əsasını qoymuşdu.Bu rəssamı canlı olaraq görən zaman onun ne qədər sadə,xoş təbiət,mehriban olduğunu görmüşdüm. Ustad rəssamın əsərlərdə ürəyinin,hisslərinin təcəssümüdür. Onun təsvir etdiyi Ulu Öndərin portretidə Heydər Əliyevə olan hisslərinin əksidir.Masası arxasında dayanan məğrur baxışlı Heydər Əliyevi görə bilirik.Cəsur baxışlarla baxan portretdə rəssam Ulu öndərin simasını ustalıqla tamamlayıb. Şəkil 4

Azərbaycan Respublikasının əməkdar rəssam Rafael Abbasovun ustalıqla təsvir etdiyi Heydər Əliyev portretlərinidə görmək olur. Portretlərin hər biri digərindən şux və konkretdir. Ulu öndərin simasındakı cizgilərin, detalların təsvir olunması canlı obrazın yaranmasına kömək olub. Şəkil 3

| | | |
|---|---|---|
|  |  |  |
| Şəkil 3 | Şəkil 4 | Şəkil 5 |

Respublikamızda Heydər Əliyevin portretlərini işləmiş heykəltaraşlarda kifayət qədər çoxdur. Görkəmli Azərbaycan heykəltaraşı, SSR və Azərbaycan Dövlət mükafatlarının laureatları, “Qırmızı əmək bayrağı”, “Heydər Əliyev”, “İstiqlal”, “Şərəf” ordenli, Azərbaycan Milli Elmlər Akademiyasının və Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü, xalq rəssamı Ömər Eldarovda dahi şəxsiyyət olan Heydər Əliyevə xüsusi hörmət və rəğbət bəsləyirdi.O bu böyük şəxsiyyətin əməksevərliyi, vətənpərvərliyi, peşəkarlığını bilirdi. Ölkəmizin dar zamanlarında vətənini çətinlikdən xilas etməsi ustad heykəltaraşın ürəyində və düşüncələrində sevgi,hörmət,qürur yaratmışdır. Ömər Eldarov ümumilli lider Heydər Əliyev ilə bağlı xatirələrini bölüşən zaman bunlari demişdir: “Qeyri-iş vaxtında o çox sadə və səmimi insan idi, zarafatlaşırdı, çox mehriban söhbət edirdi.”. Ustad heykəltaraş həmçini Ulu öndərlə bağlı olan xatirələrini bölüşən zaman sağlığında heykəllərinin düzəldilməsini istəmədiyini deyib. Bu onun nə qədər sadə bir insan olduğunun göstəricisidir. Lakin SSR Ali Soveti Heydər Əliyevə ikiqat Sosialist Əməyi Qəhrəmanı adını verəndə sadəcə öz doğma ölkəsində büstünün qoyulmasına icazə verdi. Ona heykəlinin yaradılmasının Moskva heykətaraşları tərəfindən hazırlanması təklif olunsada Heydər Əliyev bunu qəbul etməyib. Vətənpərvər olduğu üçün heykəli düzəldəcək şəxsin həm öz ölkəsinin vətəndaşı həm də, heykəlin yerləşdiriləcəyi yerde Azərbaycan olmasını arzu edib. Heykəlin Naxçıvan şəhərində yerləşdirilməsi qərarını aldı.

Azərbaycanın əməkdar rəssamı Azad Əliyevin yaradıcılığında Heydər Əliyevin əzəmətli heykəlini görmək olar. Ümumiyyətlə Ulu Öndərin həm portret, həm de heykəllərini yalnızca böyük ustadlar deyil helə yaradıcılığının ilkin mərhələsində olan gənc rəssam və heykəltaraşlarda böyük həvəs və maraqla yaratmaqdadır. Bunun səbəbi onun əziz xatirəsini hər zaman yaddaşlarda parlaq tutmaqdır. Şəkil 5

Önəmli bir amili unutmamaq lazımdır. İncəsənət insanları xalqın bir üzvü ,bir

parçasıdır.Onlar hər zaman öz həmvətənlərinin arzu istəklərini əks etdirib ruhlarına mənəvi qida olublar. Buna görədə heç tesadüfi deyil ki, bu incə sənət sahibi olan incəsənət xadimləri Azərbaycanın görkəmli siması Ümumilli lider Heydər Əliyevi her zaman hörmətlə, sevgi, minnətdarlıq və qürür hissi ilə anıb həm də, yaradıcılıqlarında onun şəxsiyyətinə böyük yer ayırıblar. Çünki dahi lider Xalqın adamı idi! Bizləri duyan, sevən,qoruyan danılmaz bir şəxsiyyət olub. Onu yalnız vətənimizin sərhədləri içərisində deyil həmçini dünya arenasında da dahi insan kimi tanıyıb sevib dəyər veriblər. Bu Ulu Öndərini digər insanlardan fərqləndirən çox böyük və önəmli nüansdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. https://azertag.az/xeber/Heyder_Aliyev_Merkezinde_Azerbaycanin_Xalq_Ressami_Tahir_Salahovun_ferdi_sergisi_
2. www.sakitmammadov.art/post/sakit-məmmədovun-heydər-əliyev-portretinin-təqdimat-mərasimi
3. www.adalet.az
4. İki sahil gündəlik ictimai-siyasi qezet.
5. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
6. www.anl.az/down/meqale/medeniyyet/2010/may/118566.htm

**Лейла Фирдовси кызы ЭФЕНДИЕВА**
Преподаватель кафедры «Дизайн» Западно-Каспийского университета
Союз художников Азербайджана
Ассоциация акварелистов Азербайджана IWS
VIPAA.Международное общество художников,
Член общественного союза ковров.
E-mail: Leylavazehi9@gmail.com

## ВКЛАД ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНСКОЕ ИСКУССТВО

### Резюме

В статье автор рассказывает о вкладе общенационального лидера в область азербайджанского искусства. Он заключается в том, чтобы привлечь внимание к золотым штрихам, коснувшимся каждой области азербайджанского искусства. Это время напряженной работы. и трудолюбие, чтобы во всех областях новой независимой страны был человек с железной волей. Это говорит о тяжелом труде. Неоспоримая забота была уделена областям искусства, которые охватывают такие широкие области, как литература, кино, театр, музыка, живопись и и т. д. После огромной поддержки Гейдара Алиева, гениального деятеля, который помог азербайджанскому искусству пережить свое развитие и возрождение, он существует и сегодня. рассказывает об искусстве Азербайджана

**Ключевые слова:** Гейдар Алиев, азербайджанское искусство, железная воля, великий лидер, независимость.

**Leyla Firdovsi EFENDİEVA**
Teacher of the "Design" department at the Zapadno-Caspian University
Union of artists of Azerbaijan
Association of watercolorists of Azerbaijan IWS
VIPAA. International Society of Artists,
Member of the public carpet union.
E-mail: Leylavazehi9@gmail.com

## CONTRİBUTİON OF NATİONAL LEADER HEYDAR ALİYEV TO AZERBAİJANİ ART

### Summary

In the article, the author talks about the contribution of the national leader to the field of Azerbaijani art. It consists in drawing attention to the golden touches that touched every area of Azerbaijani art. This is a time of hard work and industriousness, so that in all areas of the new independent country there was a man with an iron will. It speaks of hard work. Undeniable care has been given to the fields of art, which cover such broad areas as literature, cinema, theater, music, painting, etc. After the huge support of Heydar Aliyev, a brilliant figure who helped Azerbaijani art to experience its development and revival, it still exists today, talks about the art of Azerbaijan

**Key words:** Heydar Aliyev, Azerbaijani art, iron will, great leader, independence.

**Daxil olub:** 28.04.2023